**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**
**QƏRAR**

**№ 7/12**

**Bakı şəhəri** **04 aprel 2025-ci il**

**“Təbii qazın qəbulu və regionlar üzrə paylanması haqqında” 2-qaz №-li rüblük rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstəriş haqqında” Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2013-cü il 27 may tarixli 63/14 nömrəli qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə”nin 9.6-cı və 14.4-cü bəndlərini rəhbər tutaraq, “Qaz təchizatı sahəsində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 dekabr tarixli 437 nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 27 yanvar tarixli 46s nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**qərara alır:**

1. “Təbii qazın qəbulu və regionlar üzrə paylanması haqqında” 2-qaz №-li rüblük rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstəriş haqqında” Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2013-cü il 27 may tarixli 63/14 nömrəli qərarında aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin qərarla təsdiq edilmiş “Təbii qazın qəbulu və regionlar üzrə paylanması haqqında” 2-qaz №-li rüblük rəsmi statistika hesabatı formasından “Alınmış ilkin məlumatların məxfi saxlanmasına zəmanət verilir”, “Hesabat təqdim edən müəssisənin:”, “adı____”, “ünvanı____”, “rayon (şəhər) adı və kodu”, “kənd (küçə) adı və kodu”, “və “Naxçıvan qaz” İB” sözləri çıxarılsın, “İdarə sənədlərinin təsnifatı üzrə formanın kodu” sözləri “Hesabat formasının kodu” sözləri ilə, “Müəssisənin identifikasiya (statistik) kodu” sözləri “Statistik vahidin identifikasiya (statistik) kodu” sözləri ilə, hesabatın dövriliyini və tərtib edildiyi tarixi əks etdirən hissələrdə “201” rəqəmləri “20” rəqəmləri ilə əvəz edilsin;

1.2. həmin qərarla təsdiq edilmiş “Təbii qazın qəbulu və regionlar üzrə paylanması haqqında” 2-qaz №-li rüblük rəsmi statistika hesabatı formasının doldurulmasına dair göstəriş”in birinci abzasının birinci cümləsindən “və “Naxçıvan qaz” İB” sözləri çıxarılsın.

2. Qərar qəbul edildiyi gündən üç gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

3. Aparatın Energetika və ətraf mühit statistikası şöbəsinə tapşırılsın ki, bu qərardan irəli gələn məsələləri həll etsin.

4. Qərarın icrasına nəzarət Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinə həvalə edilsin.

**Sədr** **Tahir Budaqov**